8 aprel / 2020

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra – Nazirlik) Azərbaycan Respublikasının ərazisində və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində suların bioloji sərvətlərindən səmərəli istifadə, onların qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan və yerüstü təbii sərvətlərdən, mineral xammal ehtiyatlarından səmərəli istifadə, onların bərpası, Azərbaycan Respublikasında yerin təkinin geoloji öyrənilməsi, mühafizəsi, habelə torpaqların münbitliyinin bərpası və artırılması, bu məqsədlə onların monitorinqi (bundan sonra – torpaqların monitorinqi), bioloji müxtəlifliyin (flora (o cümlədən meşə və yaşıllıqlar), fauna (o cümlədən balıq və digər su bioloji resursları), xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri), atmosfer havasının mühafizəsi, ovçuluq təsərrüfatlarının, ov yerlərinin və ov obyektlərinin mühafizəsi və onlardan istifadə, tullantılarla bağlı fəaliyyət, ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması, habelə geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və xəritəçəkmə sahəsində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının digər mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, sərəncamında olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Azərbaycan və ingilis dillərində öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanılma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Bakı şəhərində yerləşir.

**2. Nazirliyin fəaliyyət istiqamətləri**

2.0. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.0.2. müvafiq sahədə dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirmək;

2.0.3. müvafiq sahədə dövlət nəzarətini həyata keçirmək;

2.0.4. müvafiq sahədə beynəlxalq əməkdaşlığı həyata keçirmək;

2.0.5. aidiyyəti dövlət qurumları ilə birlikdə müvafiq sahəyə investisiyaların cəlb olunması üçün tədbirlər görmək, investisiya layihələrin hazırlanmasını, həyata keçirilməsini təmin etmək;

2.0.6. qanunla müəyyən olunmuş hallarda və qaydada müvafiq sahədə təbiətdən istifadə ilə bağlı icazələrin verilməsini təşkil etmək, lisenziya və icazələrin şərtlərinə riayət olunmasına nəzarət etmək;

2.0.7. aidiyyəti dövlət qurumları ilə birlikdə tullantısız və ya aztullantılı istehsalın inkişafının təşviqi ilə bağlı tədbirləri həyata keçirmək;

2.0.8. aidiyyəti dövlət qurumları ilə birlikdə ekoloji təhsil və maarifləndirmə sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.9. müvafiq sahədə aparılan elmi tədqiqat işlərini Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə əlaqələndirmək;

2.0.10. müvafiq sahədə dövlət əmlakından səmərəli istifadə olunmasına nəzarət etmək və dövlət maraqlarının qorunmasını təmin etmək;

2.0.11. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.0.12. müvafiq sahənin inkişafını təmin etmək.

**3. Nazirliyin əsas vəzifələri**

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirliyin vəzifələri aşağıdakılardır:

3.0.1. müvafiq sahənin inkişafına dair prioritetləri müəyyən etmək, aidiyyəti dövlət qurumları ilə birlikdə dövlət proqramlarının, inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini təmin etmək;

3.0.2. müvafiq sahədə dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair təklifləri aidiyyəti üzrə təqdim etmək;

3.0.3. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, habelə fəaliyyət istiqamətlərinin tədqiqi və təkmilləşdirilməsi üzrə aidiyyəti qurumların fəaliyyətini əlaqələndirmək və birgə zəruri tədbirlər görmək, innovativ fəaliyyəti dəstəkləmək;

3.0.4. müvafiq sahədə dövlət-özəl tərəfdaşlığını inkişaf etdirmək;

3.0.5. Azərbaycan Respublikası Prezidentinin müəyyənləşdirdiyi hallar istisna olmaqla, müvafiq sahəyə aid məsələlərə dair tarif siyasətinin formalaşdırılmasında iştirak etmək, dövlət tərəfindən tənzimlənən tariflər barədə təkliflər vermək, habelə dövlət tərəfindən tənzimlənməyən xidmətlər üzrə tətbiq olunan ödəniş siyasətinin formalaşmasında iştirak etmək;

3.0.6. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini təmin etmək;

3.0.7. müvafiq sahədə müəyyən edilmiş qaydada dövlətin maraqlarını təmsil etmək;

3.0.8. müvafiq sahədə müəyyən edilmiş qaydalara, qanunvericiliyin tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirmək;

3.0.9. dövlət əhəmiyyətli coğrafi məlumat sistemlərinin yaradılmasını, ümumcoğrafi, elmi məlumat və digər sahələrarası mövzu xəritələrinin, atlaslarının, kartoqrafiya-tədris vasitələrinin layihələndirilməsi, tərtibi və nəşri tədbirlərini həyata keçirmək;

3.0.10. dövlət topoqrafik xəritələrinin və planlarının hazırlanmasını, ümumdövlət, müdafiə, elmi tədqiqat xarakterli və digər məsələlərin həllini təmin edən dövlət planlarının tərtibini və yüksəklik, o cümlədən qravimetrik şəbəkələrin yaradılmasını, inkişafını və işlək vəziyyətdə saxlanmasını təmin etmək;

3.0.11. dəqiqliyinə və məzmununa görə ümumdövlət, müdafiə və elmi tədqiqat məsələlərinin həllini təmin edən dövlət topoqrafik xəritələrinin, habelə qrafikli, rəqəmli, fotoqrafik və başqa formalı planların yaradılması, yeniləşdirilməsi, nəşri və geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), qravimetriya, topoqrafiya və kartoqrafiya işlərinin həyata keçirilməsində, materiallardan istifadədə dövlətin müdafiəsini və təhlükəsizliyini təmin etmək;

3.0.12. vahid dövlət koordinat, yüksəklik, qravimetrik ölçmə sistemlərinin, topoqrafik xəritə və planlarının yeniləşdirilməsinin növbəliliyini təmin etmək, miqyas sıralarını təyin etmək və geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya materiallarının və məlumatlarının metroloji təminatını həyata keçirmək;

3.0.13. hazırlanmış ərazi vahidlərinin, inzibati ərazi dairələrinin və sahə inzibati ərazi dairələrinin xəritələrini, fəaliyyət istiqamətlərinə əsasən dəqiqliyini müəyyənləşdirməklə təsdiq etmək;

3.0.14. kartoqrafiya planlarında, xəritələrində, digər normativ texniki sənədlərdə Azərbaycan Respublikasının dövlət sərhədlərinin, ərazilərinin və obyektlərinin qanuni və düzgün çəkilişinə nəzarət etmək;

3.0.15. vahid koordinat və yüksəklik sistemində obyekt və sənaye komplekslərinin, şəhər və digər yaşayış məntəqələri ərazilərinin 1:2000 və daha böyük, tikilməmiş (açıq) ərazilərdə isə 1:5000 və daha kiçik miqyaslı topoqrafik xəritələrinin təzələnməsini və çoxməqsədli topoqrafik planaalmasını, habelə ərazi vahidlərinin ərazisindən asılı olaraq sahəsi 4 kvadratkilometrə qədər olduqda - 1:5000, 4 kvadratkilometrdən 25 kvadratkilometrə qədər olduqda - 1:10000, 25 kvadratkilometrdən 100 kvadratkilometrə qədər olduqda - 1:25000, 100 kvadratkilometrdən artıq olduqda - 1:50000 miqyasda tərtib edilməsini həyata keçirmək;

3.0.16. dövlət geodeziya-istinad məntəqələrinin və yerüstü nişanlarının yerlərinin dəyişdirilməsinə, yenidən qurulmasına və yenilərinin quraşdırılmasına (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) razılıq vermək;

3.0.17. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə razılaşdırmaqla, aerofotoplanaalma işlərini həyata keçirmək və digər təşkilatları müəyyən olunmuş qaydada həmin məlumatlarla təmin etmək;

3.0.18. Azərbaycan Respublikasının müdafiəsini və təhlükəsizliyini təmin edən geodeziya, topoqrafiya, kartoqrafiya, hidroqrafiya və digər işləri, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə isə delimitasiya, demarkasiya və redemarkasiya işlərini həyata keçmək;

3.0.19. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiyanın inkişafı üçün aerokosmik məlumatlar əsasında yer səthini tədqiq etmək;

3.0.20. geodeziya və kartoqrafiya üzrə xüsusi təyinatlı cihaz və avadanlığın idxalının və ixracının qeydiyyatının aparılması məqsədilə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətini, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsini və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətini müvafiq metodiki sənədlərlə və siyahılarla təmin etmək;

3.0.21. coğrafi obyektlərin mövcud və yeni verilən adlarını qeydiyyata almaqla onların uçotunu aparmaq, habelə Azərbaycan Respublikasının Dövlət Geodeziya və Kartoqrafiya Fondunda material və məlumatların formalaşmasına, saxlanılmasına və onlardan istifadəyə, həmçinin rəqəmli kartoqrafiya məlumatı banklarının, elektron xəritələrin, geodeziya məlumatları və coğrafi adlar üzrə kataloqların yaradılmasına nəzarət etmək;

3.0.22. geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla), topoqrafiya və kartoqrafiya materiallarının, məlumatlarının uçotunu, habelə xüsusi təyinatlı avadanlıq və cihazların sınağını, geodeziya ölçmələrinin vahidliyini təmin etmək;

3.0.23. ölkə ərazisində quraşdırılmış fasiləsiz fəaliyyət göstərən istinad stansiya məntəqələrinin məlumatlarından dövlət əhəmiyyətli geodeziya və kartoqrafiya işlərində istifadə etmək;

3.0.24. Azərbaycan Respublikasının ərazisindəki dəyişikliklərə uyğun olaraq topoqrafik, inzibati, coğrafi və məlumat xəritələrində zəruri dəyişiklikləri yeni nəşr olunan xəritələrdə əks etdirmək üçün topoqrafik və tematik xəritələrin, operativ-məlumat xəritəsinin müasirliyini müntəzəm təmin etmək;

3.0.25. dövlət qeydiyyatına (patent) alınmamış, yaxud sertifikatlaşdırılmamış geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya işlərini müvəqqəti dayandırmaq, qanunvericiliyin tələblərinə uyğun gəlməyən işlərin dayandırılması barədə müvafiq orqanlar və ya məhkəmə qarşısında məsələ (iddia) qaldırmaq;

3.0.26. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə – "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 10-cu, 13–18-ci və 20–21-ci maddələrinə əsasən, Nazirliyin strukturuna daxil olan və olmayan tabeliyindəki qurumlar vasitəsilə icazələr, o cümlədən rəylər, hüquqmüəyyənedici sənədlər vermək, habelə lisenziya və icazələrin şərtlərinə əməl olunmasını yoxlamaq, icazələrin yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi və ləğvi barədə qərar qəbul etmək;

3.0.27. dövlət ekoloji ekspertizasının təşkilinə, həyata keçirilməsinə, habelə ekoloji ekspertiza rəyinin verilməsində "Ətraf mühitin mühafizəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası qanunlarının, digər normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarəti təmin etmək;

3.0.28. ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərə ixtisas attestatı vermək, attestatın qüvvədəolma müddətini dayandırmaq və ya onu ləğv etmək;

3.0.29. ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılmasını təmin etmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək, bu istiqamətdə məlumatları Nazirliyin rəsmi internet səhifəsində yerləşdirmək;

3.0.30. transsərhəd təsirə malik olan ekoloji ekspertiza obyektlərinin dövlət ekoloji ekspertizasının həyata keçirilməsi üçün ekspert komissiyası təşkil etmək;

3.0.31. strukturuna daxil olan qurum vasitəsilə atmosfer havasının mühafizəsi sahəsində normativlərə, qaydalara və digər tələblərə əməl olunmasına fasiləsiz nəzarət etmək;

3.0.32. atmosfer havasına atılan zərərli maddələrin hər bir stasionar mənbəyi və onların məcmusu (bütövlükdə obyekt) üçün atılmanın yol verilən həddini, habelə atmosfer havasına atılan zərərli maddələrin mənbəyi olan hüquqi və fiziki şəxslərin atılmanın yol verilən həddinə riayət etməsi mümkün olmadığı halda zərərli maddələrin müvəqqəti razılaşdırılmış atılması limitini müəyyən etmək;

3.0.33. dövlət uçotuna alınaraq normalaşdırılan atmosfer havasına atılan zərərli maddələrin və atmosfer havasına fiziki təsir mənbələrinin müəssisə, təşkilatlar, şəhər və digər yaşayış məntəqələri üzrə siyahısını müəyyən etmək, onların ekoloji təhlükəlilik dərəcəsini müəyyənləşdirmək;

3.0.34. strukturuna daxil olan qurum vasitəsilə təbiətdəki çirklənmə mənbələrinin uçotunu, təhlükə potensiallı obyektlərin qeydiyyatını aparmaq, onların ekoloji zərərlilik dərəcəsini müəyyənləşdirmək, ətraf mühitə zərərli maddələr atılmasının (axıdılmasının) limitlərini müəyyən etmək və ona nəzarəti həyata keçirmək;

3.0.35. ətraf mühitə atılan çirkləndirici maddələrin təmizlənməsi üçün müvafiq qurğuların istismara verilməsinə, bu qurğuların vəziyyətinə, habelə çirkləndirmə mənbələrinin nəzarət cihazları ilə və tənzimləyici cihazlarla təchiz edilməsinə dair qayda və normativlərə, çirkab suların atılması qayda və şərtlərinə əməl olunmasına nəzarət etmək;

3.0.36. şəhərlərdə və Xəzər dənizinin sahillərində (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsinin sahilboyu 20–50 metrlik zolağının altındakı torpaq sahələri istisna olmaqla) balıq məhsullarının satışı üzrə ixtisaslaşmış bazarların təşkili üçün müvafiq torpaq sahələrinin ayrılmasına razılıq verilməsini, torpaqların kateqoriyalara aid edilməsinə və onların bir kateqoriyadan digərinə keçirilməsinə rəy verilməsini təşkil etmək;

3.0.37. "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aidiyyəti qurumlarla birlikdə torpaqların münbitliyinin bərpasına və artırılmasına dair kompleks tədbirlər həyata keçirmək;

3.0.38. aidiyyəti qurumlarla birlikdə dövriyyədən çıxmış torpaqların kənd, meşə, balıqçılıq (o cümlədən akvakultura) və ya digər təsərrüfatlarda istifadə üçün yararlı vəziyyətə, yaxud bu torpaqların ayrılması şərtlərinə uyğun olaraq, regionun ekoloji tarazlığını təmin edən vəziyyətə gətirilməsi şərtlərini müəyyən etmək;

3.0.39. aidiyyəti dövlət orqanı ilə birlikdə torpaq sürüşməsi təhlükəsi olan əraziləri müəyyən edən coğrafi koordinatların əks olunduğu xəritələri hazırlamaq, geodeziya tədqiqatları əsasında geodinamik (zəlzələ, sürüşmə və s.) və digər fövqəladə təbiət hadisələrinin proqnozlaşdırılması məqsədilə tədbirlər görmək, bu barədə digər aidiyyəti icra hakimiyyəti orqanlarına məlumat vermək;

3.0.40. fəaliyyət istiqamətləri üzrə strukturuna daxil olan və tabeliyindəki qurum vasitəsilə yerüstü və yeraltı suların istismar ehtiyatlarını nəzərə almaqla, dövlət uçotunu, həmçinin su obyektlərinin monitorinqi əsasında aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə dövlət su kadastrını aparmaq;

3.0.41. aidiyyəti qurumlarla birlikdə su obyektlərindən səmərəli və məqsədyönlü istifadə edilməsi, yerüstü və yeraltı suların çirklənməkdən qorunması məqsədilə fasiləsiz nəzarət tədbirlərini həyata keçirmək;

3.0.42. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə su obyektlərinin monitorinqini aparmaq, su ehtiyatlarından kompleks istifadə və onların mühafizəsi sxemlərini, su təsərrüfatı balanslarını hazırlamaq;

3.0.43. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə su mühafizə zonalarında təbii ehtiyatlardan istifadə və onların mühafizəsi rejiminə riayət edilməsinə, fiziki və hüquqi şəxslərin digər təsərrüfat fəaliyyətinə nəzarət etmək;

3.0.44. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su mühafizə zonasının, sahil mühafizə zolağının ölçülərini, sərhədlərini və onlardan istifadə rejimini müəyyən etmək;

3.0.45. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tullantılarla bağlı fəaliyyətə dövlət nəzarətini həyata keçirmək;

3.0.46. ətraf mühitə və insan sağlamlığına zərərli təsirin təhlükəlilik dərəcəsindən asılı olaraq, təhlükəli tullantıları təhlükəlilik dərəcələrinə bölmək, aidiyyəti qurumlarla birlikdə sənaye, məişət tullantılarının, başqa tullantıların atılması qaydasının, onların anbara vurulması və basdırılması həcmlərinin, normalarının və limitlərinin müəyyənləşdirilməsində, ilkin uçotunun aparılması qaydalarının hazırlamasında iştirak etmək;

3.0.47. yaşıllıqların uçotu və monitorinqi haqqında məlumatları toplayaraq, Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etmək, yaşıllıqların kadastrını aparmaq, yaşıllıqların müfəssəl siyahısını tərtib etmək;

3.0.48. yerli iqlim şəraiti və torpaqların xüsusiyyətləri nəzərə alınmaqla, yaşıllıqların salınması üçün faydalı bitki cinslərini və növlərini müəyyən etmək;

3.0.49. strukturuna daxil olan qurum vasitəsilə ekoloji təhlükəsizlik sahəsində dövlət nəzarətini həyata keçirmək;

3.0.50. aidiyyəti qurumlarla birlikdə ekoloji təhlükəsizliyi təmin etmək, təbii ekoloji sistemlərə təsərrüfat fəaliyyəti və digər fəaliyyət nəticəsində dəyə biləcək zərərin qarşısını almaq üçün tədbirlər görmək;

3.0.51. strukturuna daxil olan qurum vasitəsilə torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə həyata keçirilən faydalı qazıntıların hasilatı, aqrokimyəvi, meşə-meliorasiya, geoloji kəşfiyyat və axtarış işlərində aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması sahəsində müvafiq tədbirlər görmək;

3.0.52. tabeliyindəki qurum vasitəsilə "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində fasiləsiz geoloji tədqiqatlar aparmaq, yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat) ilə əlaqədar işləri həyata keçirmək, mineral xammal bazası haqqında informasiyanı toplamaq, sistemləşdirmək, saxlamaq, yerin dərinlik quruluşunu, seysmohidrogeodinamik şəraiti və digər təbiət hadisələrini öyrənmək;

*(ardı 5-ci səhifədə)*

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında əsasnamə

*(əvvəli 4-cü səhifədə)*

3.0.53. yer təki sahəsində faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı məqsədilə "Dağ-mədən ayırması" statusunun verilməsini, həmçinin geoloji öyrənilmə məqsədilə ayrılan yer təki sahələrinə geoloji ayırma statusunun verilməsini tabeliyindəki qurum vasitəsilə "Yerin təki haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirmək, faydalı qazıntıların çıxarılması, eləcə də onların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilən yer təki sahələri barədə müvafiq işləri dövlət uçotuna və qeydiyyatına almaq, faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrını aparmaq;

3.0.54. Azərbaycan Geologiya Muzeyini zənginləşdirmək, Dövlət Geoloji İnformasiya Fondunu genişləndirmək, geoloji materialların mühafizəsini və onlardan məqsədyönlü istifadəni təmin etmək;

3.0.55. istifadəyə verilən yer təki sahələrinin və onlarla əlaqədar işlərin dövlət qeydiyyatını və dövlət uçotunu tabeliyindəki qurum vasitəsilə təmin etmək, kəşf edilmiş faydalı qazıntı və proqnoz ehtiyatlarının hesabatları əsasında faydalı qazıntı ehtiyatlarının dövlət balansını və faydalı qazıntı yataqlarının və təzahürlərinin dövlət kadastrını aparmaq, yerin təkindən istifadə ilə bağlı müsabiqə və hərracların keçirilməsini təşkil etmək, bu sahədə xidmətlər göstərmək;

3.0.56. tabeliyindəki qurum vasitəsilə xarici şirkətlər və müəssisələrlə birlikdə müvafiq qaydada ölkə ərazisində, habelə başqa dövlətlərin ərazisində geoloji kəşfiyyat işlərinin aparılması üçün tədbirlər görmək;

3.0.57. milli parkların, təbiət abidələrinin, xüsusi mühafizə olunan digər ərazilərin və təbii obyektlərin təşkili və ləğvi barədə aidiyyəti üzrə təkliflər vermək, təbiət parklarının, dövlət təbiət yasaqlıqlarının əsasnamələrini təsdiq etmək;

3.0.58. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə həyata keçirilən işlərin məhdudlaşdırılması, müvəqqəti dayandırılması, o cümlədən maliyyələşdirilməsinin dayandırılması, onların istismara verilməsinin qadağan edilməsi, təsərrüfat fəaliyyətinin və başqa fəaliyyətlərin dayandırılması, yaxud qadağan edilməsi barədə tədbirlər görmək;

3.0.59. fəaliyyət istiqamətlərinə uyğun olaraq, beynəlxalq və respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrının və monitorinqinin aparmasını həyata keçirmək;

3.0.60. xüsusi mühafizə olunan təbiət ərazilərində xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq edilən fəaliyyət zonalarını müəyyənləşdirmək, sanitariya-mühafizə zonalarının müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdimat vermək və bu zonalardan istifadə qaydalarına nəzarət tədbirlərini həyata keçirmək;

3.0.61. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, xüsusi mühafizə olunan təbiət ərazilərini və obyektlərini dövlət qeydiyyatına almaq, onlar üçün pasport hazırlamaq;

3.0.62. yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması üçün rəy vermək, xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin pasportunu qeydiyyata almaq;

3.0.63. heyvanlar aləmi haqqında qanunvericiliyə uyğun olaraq, müraciətlər əsasında heyvanlar aləmi obyektlərinin bələdiyyə mülkiyyətində və ya xüsusi mülkiyyətdə olması barədə şəhadətnamə vermək;

3.0.64. heyvanlar aləminin (o cümlədən balıq və digər su bioresurslarının) mühafizəsini və istifadəsini, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"nın aparılmasını təşkil etmək, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilməmiş, lakin nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərini xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil etmək, aidiyyəti dövlət qurumları ilə birlikdə heyvanlar aləminin dövlət uçotunu, kadastrını və monitorinqini aparmaq;

3.0.65. strukturuna daxil olan qurum vasitəsilə heyvanların tələf olmasının və yaşayış mühitinin pisləşməsinin qarşısının alınması məqsədilə aidiyyəti təşkilatların elmi-praktiki dəstəyi ilə bitki mühafizəsi vasitələrinin tətbiqi məhdudlaşdırılan və ya qadağan edilən ayrı-ayrı əraziləri müəyyən etmək;

3.0.66. nadir və nəsli kəsilməkdə olan, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na düşən və müxtəlif beynəlxalq sənədlərlə mühafizə olunan heyvan və bitki növlərinin beynəlxalq ticarətini tənzimləmək;

3.0.67. Azərbaycan Respublikasının ərazisində beynəlxalq əhəmiyyətli su-bataqlıq yerlərində UNESCO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyasının tələblərinin yerinə yetirilməsini təmin etmək;

3.0.68. strukturuna daxil olan qurum vasitəsilə zooloji kolleksiyalarla ticarətə, habelə zooloji kolleksiyaların Azərbaycan Respublikasına gətirilməsinə, onun hüdudlarından kənara aparılmasına icazə vermək, onları dövlət uçotuna almaq və dövlət reyestrinə daxil edilməsi barədə onun mülkiyyətçisinə (sahibinə) şəhadətnamə vermək;

3.0.69. ov obyektinə aid edilən vəhşi heyvanların ov mövsümündə tutulması və vurulması normasını (sayını) strukturuna daxil olan qurum vasitəsilə müəyyən etmək;

3.0.70. ovçuluq təsərrüfatlarına bitişik torpaq və su sahələrində mühafizə, sanitariya-mühafizə və digər qoruyucu zonaları strukturuna daxil olan qurum vasitəsilə müəyyən etmək;

3.0.71. yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının yaradılması, respublika əhəmiyyətli ovçuluq təsərrüfatları istisna olmaqla ovçuluq təsərrüfatlarının aparılması məqsədilə ov yerlərini bələdiyyələrin, hüquqi və fiziki şəxslərin istifadəsinə və ya icarəsinə vermək;

3.0.72. strukturuna daxil olan qurumu vasitəsilə ovçuluq təsərrüfatlarının mühafizəsi və istifadəsi üzərində idarəetməni və dövlət nəzarətini həyata keçirmək, respublika, yaxud yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarını müəyyən etmək, yerli əhəmiyyətli ovçuluq təsərrüfatlarının təşkili və ləğvi barədə qərar qəbul etmək, onların inkişafı və yerləşdirilməsi sxemlərini təsdiq etmək;

3.0.73. ov üçün qapalı olan yerlərdə və qadağan edilmiş müddətdə zooloji material toplamaq məqsədilə və başqa elmi məqsədlərlə ovlanması qadağan edilməyən vəhşi heyvanların yalnız müvafiq elmi təşkilatların müraciətinə əsasən ovlanmasına (tutulmasına) strukturuna daxil olan qurum vasitəsilə razılıq vermək;

3.0.74. "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozulduqda, qiymətli balıq və digər su bioresursları növlərinin üstün mühafizə rejimini müəyyən etmək, strukturuna daxil olan qurum vasitəsilə balıqçılıq subyektlərinin uçotunu aparmaq;

3.0.75. strukturuna daxil olan qurum vasitəsilə ölkənin daxili sularında və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində suyun bioloji sərvətlərinin istismarı həcmini və elmi əsaslandırılmış rejimini müəyyən etmək;

3.0.76. balıqartırma və balıqyetişdirmə müəssisələrinin fəaliyyətinin əsas istiqamətlərini dəyişdirmədən balıqçılıq haqqında qanunvericiliyə uyğun akvakultura (o cümlədən dəniz akvakulturası (marikultura) əmtəə balıqçılığının yaradılması üçün tədbirlər görmək;

3.0.77. ixtisaslaşmış balıq məhsulları satışı bazarlarının yerləşmə sxemini aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla müəyyən etmək;

3.0.78. dövlət sifarişi ilə akvakultura təsərrüfatlarında balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi məqsədilə akvakultura subyektləri ilə müqavilələr bağlamaq, aidiyyəti qurumlarla birgə balıq və digər su bioresurslarının artırılması, bərpası, iqlimləşdirilməsi, balıqçılıq su obyektlərinin balıqçılıq təsərrüfatının monitorinqi, kadastrı və meliorasiyası işlərini həyata keçirmək;

3.0.79. "Lisenziyalar və icazələr haqqında" və "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq, balıqovlama biletləri vermək;

3.0.80. nərə cinsli balıqların və digər qiymətli balıq növlərinin artırılması istiqamətində tədbirlər görmək;

3.0.81. dövlət meşə fondu torpaqlarının sərhədlərinin pozulması hallarının qarşısını almaq məqsədilə bu torpaqlarla həmsərhəd dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi zamanı həmin torpaqların sərhəd xətlərinin dəqiqləşdirilməsində iştirak etmək, istifadəsi məhdudlaşdırılmış xüsusi mühafizə olunan meşə sahələrinin siyahısını müəyyən etmək;

3.0.82. strukturuna daxil olan qurum vasitəsilə meşə sahələrinin, qiymətli təbii landşaftların, habelə meşələrin mühafizəsi, yeni meşə sahələrinin salınması, onların suqoruyucu, sutəmizləyici, torpaqqoruyucu, rekreasiya və digər faydalı təbii xassələrinin saxlanılması, meşə ehtiyatlarından səmərəli istifadə olunması, meşələrin bərpası, təkrar istehsalı və meşə təsərrüfatının aparılması istiqamətində, habelə onların yanğınlardan, zərərvericilərdən və xəstəliklərdən qorunması məqsədilə tədbirlər həyata keçirmək;

3.0.83. meşələrin dövlət uçotu, dövlət meşə kadastrı, meşələrin monitorinqi və meşə quruluşu işlərini strukturuna daxil olan qurum vasitəsilə aparmaq;

3.0.84. meşəsalma məqsədilə qeyri-meşə torpaqlarında meşə salmaq, meşə fondunun məhsuldar olmayan torpaq sahələrini minimuma endirmək, meşə fonduna daxil olmayan torpaqlarda qoruyucu əkinlər yaratmaq üçün tədbirlər görmək;

3.0.85. meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası məqsədilə meşə istifadəçisinə (icarəçisinə) verildikdə müqavilədə sahənin sərhədlərini meşənin xəritələrinə əsasən müəyyənləşdirməklə naturada nişanlanmasına və istifadə (icarə) müddəti dövründə sərhədlərinin qorunmasına fasiləsiz nəzarəti strukturuna daxil olan qurum vasitəsilə həyata keçirmək;

3.0.86. hidrometeorologiya, beynəlxalq aeronaviqasiya meteoroloji xidmətini, ətraf mühitin və təbii sərvətlərin dövlət monitorinqi sistemini yaratmaq, hidrometeorologiya və ətraf mühitin monitorinqi üzrə müşahidələrlə, tədqiqatlarla bağlı tədbirləri həyata keçirmək;

3.0.87. strukturuna daxil olan qurum vasitəsilə hidrometeoroloji müşahidə şəbəkəsini uçota almaq, onların köçürülməsinə, yerinin dəyişdirilməsinə, yenilərinin quraşdırılmasına, bərpa edilməsinə və fəaliyyətlərinin dayandırılmasına razılıq vermək, habelə müşahidə şəbəkələrinin ətrafında ayrılmış mühafizə zonalarının qorunmasına nəzarət etmək;

3.0.88. yerüstü suların dövlət uçotunun aparılmasını təmin etmək, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində baş verən ekoloji prosesləri kompleks şəkildə öyrənmək, regional iqlim dəyişmələrinin və digər qlobal ətraf mühit problemlərinin ölkə əhalisinə və iqtisadiyyatına təsirini araşdırmaq;

3.0.89. hidrometeorologiya fəaliyyəti sahəsində uçot və hesabat sistemlərinin hazırlanmasını və hidrometeoroloji məlumatların sertifikatlaşdırılmasını təşkil etmək, hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə Azərbaycan Respublikası Dövlət Məlumatlar Fondundan istifadəyə, onun idarə olunmasına və mühafizəsinə nəzarət etmək;

3.0.90. strukturuna daxil olan qurum vasitəsilə transsərhəd və daxili səth sularının (çaylar, göllər, su anbarları, habelə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsi) kəmiyyət və keyfiyyət məlumatlarının təhlili əsasında aidiyyəti orqanlarla (qurumlarla) birlikdə su təsərrüfatı balanslarının və su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərini tərtib etmək, eləcə də hövzə idarəetmə planlarını hazırlamaq və həyata keçirmək;

3.0.91. strukturuna daxil olan qurum vasitəsilə "Hidrometeorologiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əhalini, dövlət orqanlarını, müəssisə və təşkilatları, kütləvi informasiya vasitələrini mövcud və gözlənilən meteoroloji, aqrometeoroloji və hidrometeoroloji, ətraf mühitin çirklənmə səviyyəsi, təhlükəli təbii hidrometeoroloji hadisələr barədə, habelə ölkə ərazisində fövqəladə halların meydana çıxmasına yol açan ətraf mühitin ekstremal şəkildə çirklənməsi barədə məlumatlarla və xəbərdarlıqlarla fasiləsiz təmin etmək;

3.0.92. hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə texniki tələblərə, norma və qaydalara əməl edilməsinə nəzarət etmək;

3.0.93. hidrometeorologiya fəaliyyəti haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada ödənişli və ödənişsiz xidmət göstərilməsini strukturuna daxil olan qurum vasitəsilə təşkil etmək;

3.0.94. beynəlxalq aeronaviqasiyaya meteoroloji xidmətin göstərilməsinə nəzarət etmək;

3.0.95. təbiəti mühafizə və təbiətdən istifadə sahəsində dövlət standartlarının hazırlanmasında iştirak etmək, təbii mühit obyektlərinin çirklənməsinə nəzarət sahəsində metodoloji rəhbərliyi həyata keçirmək;

3.0.96. Nazirliyə həvalə edilən hallarda ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması məqsədilə investisiyaların cəlb edilməsi sahəsində tədbirlər görmək və onların təyinatı üzrə istifadəsinə nəzarət etmək;

3.0.97. fəaliyyət istiqaməti üzrə tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsi vəsaitinin, xarici və beynəlxalq kredit, qrant və digər maliyyə vəsaitinin cəlb olunması üçün tədbirlər görmək, ayrılan vəsaitdən səmərəli istifadəni təmin etmək;

3.0.98. müvafiq sahədə dövlət sifarişçisi funksiyasının həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.0.99. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (publik hüquqi şəxslər istisna olmaqla) vəzifələrini yerinə yetirmək üçün istifadə etdikləri məqsədli büdcə vəsaitinin, digər vəsaitin xərclər smetalarını təsdiq etmək, onlardan təyinatına uyğun istifadəyə nəzarət etmək;

3.0.100. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı zəruri tədbirləri hazırlamaq və həyata keçirmək;

3.0.101. işçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasını təmin etmək;

3.0.102. müvafiq sahədə elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək;

3.0.103. müvafiq sahə üzrə beynəlxalq və yerli səviyyədə proqramlar, layihələr, digər sənədlər hazırlamaq, aidiyyəti üzrə təqdim etmək, yaxud həyata keçirmək;

3.0.104. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.0.105. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.0.106. müvafiq sahədə yüksəkixtisaslı kadrlara tələbatı öyrənmək, kadr hazırlığını təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.107. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.108. müvafiq sahədə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.109. ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərərin həcmini müəyyən etmək və bunun əsasında təqsirkar şəxslərə bu zərərin könüllü ödənilməsinə, habelə pozuntuların aradan qaldırılmasına dair tələb irəli sürmək və ya məhkəməyə iddia təqdim etmək;

3.0.110. ov etmək üçün icazə, ovçuluq biletləri vermək, habelə ovçuluq fəaliyyəti üçün ov yerləri ayırmaq;

3.0.111. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri aşkarlandıqda isə aidiyyəti üzrə məlumat vermək;

3.0.112. fəaliyyət istiqamətləri və vəzifələri dairəsində elmi tədqiqatlar aparılmasını təşkil etmək;

3.0.113. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.114. insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, onların pozulmasının qarşısını almaq;

3.0.115. Nazirlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.0.116. Nazirliyə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.0.117. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.0. Öz vəzifələrini həyata keçirmək üçün Nazirliyin aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.2. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.0.3. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək, onlardan belə məlumatları (sənədləri) əldə etmək;

4.0.4. müvafiq sahə ilə bağlı rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr və tədqiqatlar aparmaq, metodiki və analitik materiallar, tövsiyələr hazırlamaq, qarşıya çıxan problemlərin və qüsurların həlli yollarını prioritetləşdirmək;

4.0.5. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi şirkətləri, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, ictimai əsaslarla işçi qruplar və komissiyalar yaratmaq;

4.0.6. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək, həmçinin belə tədbirlərin ölkədə və xaricdə keçirilməsini təşkil etmək;

4.0.7. xarici dövlətlərin müvafiq sahədə təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək, danışıqlar aparmaq, danışıqların aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq, yaxud hazırlanmasında iştirak etmək, müvafiq sahə üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrasına nəzarət etmək və həmin müqavilələr üzrə öhdəliklərin icrası məqsədilə tədbirlər görmək;

4.0.8. xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, genişləndirilməsi və müvafiq sahənin təkmilləşdirilməsi barədə təkliflər təqdim etmək;

4.0.9. ekologiyanın və təbii sərvətlərin mühafizəsi sahəsində fəaliyyət göstərən ictimai təşkilatlarla birlikdə təbiətdən və təbii sərvətlərdən səmərəli istifadə haqqında bilikləri təbliğ etmək, müvafiq sahə üzrə innovativ təşəbbüslərə dəstək vermək, müsabiqələr, sərgilər, konfranslar, digər tədbirlər keçirmək;

4.0.10. aidiyyəti dövlət qurumları ilə birgə ətraf mühitin və təbii ehtiyatların monitorinqini aparmaq, bu sahədə laborator analizləri həyata keçirmək;

4.0.11. mineral xammal ehtiyatlarından istifadəyə dair tövsiyələr hazırlamaq, geologiya elmi və təcrübəsinin ən yeni nailiyyətlərinin tətbiqi, torpaqların münbitliyinin monitorinqi, geodeziya (xüsusi (sahəvi) təyinatlı geodeziya istisna olmaqla) və kartoqrafiya fəaliyyəti sahələrində dövlət siyasəti məsələlərinin, elm və texnikanın əsas istiqamətlərinin, elmi araşdırmaların və qabaqcıl xarici ölkələrin nailiyyətlərinin ümumiləşdirilməsi, öyrənilməsi və onların tətbiqi üçün mütəxəssislər, habelə elmi-texniki cəmiyyətlərin əməkdaşlarını cəlb etməklə elmi texniki şura yaratmaq;

4.0.12. torpaq mülkiyyətçilərindən, istifadəçilərindən, icarəçilərindən torpaqların münbitliyinin bərpası və mühafizəsi barədə məlumatlar almaq, onları təhlil etmək, müvafiq təkliflərlə aidiyyəti orqanlar qarşısında vəsatət qaldırmaq;

4.0.13. müəyyən olunmuş qaydada dövri mətbu orqan təsis etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, işçiləri dövlət mükafatlarına, fəxri adlara və digər təltiflərə təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.0.14. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu, onun Aparatının və strukturuna daxil olan qurumların aparatının işçilərinin say həddini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri (bundan sonra – nazir) rəhbərlik edir. Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün nazir şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır. Nazir müavinləri, nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri (əsasnamələri) Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (əsasnamələrini) təsdiq edir;

5.5.4. bu Əsasnamənin 5.5.3-cü yarımbəndinə uyğun olaraq, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;

5.5.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların (strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və strukturuna daxil olmayan tabeliyindəki qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir;

5.5.6. Apellyasiya Şurasının sədrini, habelə onun təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.7. Nazirliyin Aparatının, Nazirliyin strukturuna daxil olan regional bölmələrin işçilərini, Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və onların müavinlərini (Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxslər istisna olmaqla), digər işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.8. Nazirliyin dövlət qulluqçusu olan işçilərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı ixtisas dərəcələri verir;

5.5.9. müvafiq sahədə yüksək xidmətləri olan şəxslərə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir, habelə Nazirliyin qəbul etdiyi normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.11. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları, idarə, müəssisə və təşkilatları, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.13. Nazirliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar fondların formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.14. dövlət büdcəsindən ayrılan vəsaitin, həmçinin büdcədənkənar xüsusi vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, səmərəli və təyinatı üzrə xərclənməsini, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, işçilərin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.15. Nazirliyin səlahiyyətinə aid olan məsələlər ilə bağlı zəruri qanun layihələrini və digər normativ hüquqi aktları Azərbaycan Respublikasının Prezidentinə, yaxud Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir;

5.5.16. Azərbaycan Respublikasının bölgələrində, şəhərlərində, rayonlarında (şəhər rayonlarında) birbaşa ona tabe olan idarələrini (şöbələrini, bölmələrini və digər idarəetmə qurumlarını, regional orqanlarını) yaradır və ləğv edir;

5.5.17. səlahiyyətləri daxilində dövlət sirrinə aid olan məlumatların mühafizəsini təmin edir.

5.6. Nazirliyin strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.8. Nazirlikdə nazirdən (Kollegiyanın sədrindən), nazirin müavinlərindən, Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbərindən və Nazirliyin digər rəhbər işçilərindən ibarət Kollegiya yaradılır. Nazirliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin Kollegiyasının üzvlərinin sayını və tərkibini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin Kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirəyə çıxarır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktlar;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktlar;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktlar;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktlar;

5.11.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktlar;

5.11.6. bu Əsasnamənin 5.11.1–5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişikliklərin edilməsi barədə hüquqi aktlar.

5.12. Nazirliyin Kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olduqda, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin Kollegiyasının şəxsi fikirləri (xüsusi rəyi) olan üzvləri bu barədə məlumatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Nazirliyin Kollegiyasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Nazirlikdə müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura, habelə digər ictimai şuralar yaradıla bilər.

5.16. Nazirlik ətraf mühitin mühafizəsinə, o cümlədən meşə təsərrüfatı, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin mühafizəsinə və onlardan istifadəyə, balıq ovunun tənzimlənməsinə dövlət nəzarətini həyata keçirən aidiyyəti işçilərini təsviri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən xüsusi geyimlə, nəzarət-ölçü cihazları və digər xüsusi vasitələrlə, habelə qanuna uyğun olaraq xidməti silahla təmin edir.